Bülleten No: 30 / iyun 2015

Elektron Hökumət Portalı

your gateway to all public services

AZƏRBAYCAN RESPUBLİKASI
RABİTƏ VƏ YÜKSƏK
TEXNOLOGİYALAR NAZİRLİYİ

www.e-gov.az

İYUN 2015

# Elektron Hökumət Bülleteni




## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə




ISO 9001 SGS SYSTEM CERTIFICATION

UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”nın və “Elektron xidmət növlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında dəyişikliklər edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə razılaşdırılmış təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır**:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1072, № 12, maddə 1247; 2012, № 1, maddə 40, № 3, maddə 256, № 10, maddə 1016, № 11, maddə 1207; 2013, № 6, maddələr 745, 757, № 7, maddə 868, № 8, maddələr 1005, 1018, № 11, maddə 1466, № 12, maddə 1639; 2014, № 1, maddə 69, № 2, maddələr 191, 201, 207, № 3, maddələr 307, 317, № 4, maddə 449, № 5, maddə 560, № 6, maddələr 733, 747, № 7, maddələr 920, 953, № 10, maddələr 1287, 1319, № 11, maddələr 1505, 1506, № 12, maddə 1656; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 29 yanvar tarixli 19 nömrəli qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Elektron xidmət növlərinin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

**1. 3.9-cu bənd aşağıdakı redaksiyada verilsin:**

**3.9.** Doğum haqqında vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu

**2. Aşağıdakı məzmunda 3.9-1 - 3.9-6-cı və 3.19-cu bəndlər əlavə edilsin:**

**3.9-1.** Ölüm haqqında vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu

**3.9-2.** Nikah haqqında vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu

**3.9-3.** Nikahın pozulması haqqında vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu

**3.9-4.** Övladlığa götürmə haqqında vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu

**3.9-5.** Atalığın müəyyən edilməsi haqqında vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu

**3.9-6.** Adın, ata adının və soyadın dəyişdirilməsi haqqında vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu

**3.19.** Vərəsəlik işlərinin açılıb-açılmaması barədə məlumatın verilməsi

**Azərbaycan Respublikasının**
**Baş naziri**
**Artur Rasi-zadə**
*Bakı şəhəri, 27 aprel 2015-ci il*
*№ 120*

# Microsoft şirkətinin Azure Bulud texnologiyaları platformasından praktik istifadə imkanları müzakirə edilmişdir

7 may 2014-cü il tarixində RYTN MHM-də Microsoft şirkətinin nümayəndələri ilə görüş keçirmişdir. Görüş zamanı Microsoft şirkətinin Bulud texnologiyaları (Microsoft Azure) və bu sahədə göstərilə biləcək servislər müzakirə edilmişdir. Microsot Azure platforması dünyanın ən qabaqcıl Bulud texnologiyalarından olub, hal hazırda 400-ə yaxın müxtəlif tipli xidmətlər göstərmək imkanına malikdir. Müzakirələr zamanı Azure platformasının böyük həcmdə məlumatların saxlanılması, fəlakətlər zamanı komputer sistemlərinin bərpa edilməsi və rezervləmə imkanları daha böyük maraq oyatmışdır.




Görüşün sonunda, MHM mütəxəssislərinin Microsoft Azure platformasının imkanları ilə tanış olması və MHM-in göstərdiyi bəzi xidmətlərin potensial olaraq Buluda keçid təkliflərinin hazırlanması qərara alınmışdır. Məqsəd, gələcəkdə elektron hökumət portalı ilə əməkdaşlıq, elektron xidmətlərin hazırlanması və saxlanılmasında Azure platformasından istifadə imkanları da araşdırma mövzusu olacaqdır.

www.e-gov.az

# Vətəndaş müraciətlərinə baxılmasında operativliyi və nəzarəti gücləndirən yeni elektron informasiya sistemi yaradılır



*Ölkə vətəndaşlarının gündəlik problemlərinin öyrənilməsində və həll olunmasında mühüm vasitə olan müraciətlərə baxılmasını yaxşılaşdırmaq, bu sahədə işi təkmilləşdirmək dövlətimizin başçısının daim diqqət yetirdiyi məsələlərdən biridir. 2015-ci il aprelin 29-da Azərbaycan Respublikası Prezidentinin imzaladığı "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında" Fərman və həmin Fərmanla təsdiq edilmiş Qaydalar bu diqqətin daha bir nümunəsidir. Yeni yaradılan vahid elektron informasiya sisteminin mahiyyəti və əsas məqsədləri barədə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının sənədlərlə və vətəndaşların müraci ətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılovun AZƏRTAC-a müsahibəsini təqdim edirik.*

**- Süleyman müəllim, dövlətimizin başçısının imzaladığı bu yeni Fərman və təsdiq etdiyi Qaydalar hansı zərurətdən irəli gəlib və vətəndaş müraciətlərinə baxılmasında hansı yeniliklərə səbəb olacaq?**

- İnformasiya-kommunikasiya texnologiyalarını çox sürətli inkişafı, bu sahəyə sonsuz diqqəti ilə seçilən Azərbaycan Respublikası müasir tələblər səviyyəsinə yüksəlmək, dünyaya daha yaxından inteqrasiya olunmaq üçün müstəqillik illərində, xüsusilə son 10 ildə misli-bərabəri olmayan işlər görüb. Hamı çox gözəl bilir ki, indi Azərbaycan kosmik dövlətlər ailəsinə daxil olub və yüksək texnologiyalara yiyələnmək istiqamətində daha böyük nailiyyətlər qazanmaq üçün ciddi səy göstərməkdədir. Azərbaycan Prezidenti həyatın bütün sahələrində innovasiyaların geniş tətbiqini bir vəzifə kimi qarşıya qoyub və buna hər cür şərait yaradıb. Bütün bu nailiyyətlər, ilk növbədə, xalqın rifahının yüksəldilməsinə xidmət göstərir.

Azərbaycan vətəndaşları dövlətimizin başçısının qayğı və diqqətini həmişə hiss edir və bunun real nəticələrini öz gündəlik həyatlarında görürlər. ***Bu, bir həqiqətdir ki, vətəndaşlara qayğı göstərilməsi, onların müraciətlərinə baxılması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daim diqqət yetirdiyi prioritet məsələlərdən biri olub və bu gün də prioritet olaraq qalır.*** Mətbuatdan bildiyiniz kimi, son illərdə dövlət qurumlarında bu işlərə diqqət daha da artırılıb. Prezidentin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi və yerli icra hakimiyyəti orqanları rəhbərlərinin vətəndaşlarla ünsiyyəti daha da güclənir, yerlərdə keçirilən çoxsaylı səyyar qəbullarda sadə insanların problemlərinin yerində öyrənilib həll edilməsi üçün təsirli tədbirlər görülür.

Vətəndaşların müraciətlərini dərindən öyrənmək, qaldırılan problemləri operativ həll etmək üçün müasir informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə olunur. Artıq bir çox dövlət qurumlarında videoqəbulların keçirilməsi, mərkəzləşdirilmiş çağrı və sorğu mərkəzlərinin tətbiqi adi hal alıb. Bu sahədə vəziyyətin daha da yaxşılaşdırılması üçün işlər ardıcıl davam etdirilir. Bütün bunlar vətəndaşlar tərəfindən son dərəcə müsbət qarşılanır.

Eyni zamanda, müvafiq qanunvericiliyin təkmilləşdirilməsi də diqqətdən kənarda qalmır. "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" 1997-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Qanununun yeni redaksiyası işlənib hazırlanaraq Milli Məclisin müzakirəsinə təqdim olunub. İkinci oxunuşdan keçən qanun layihəsi yəqin ki, yaxın vaxtlarda qəbul olunacaq və Prezident tərəfindən imzalanacaq.

Yeni yaradılan vahid elektron informasiya sisteminə gəldikdə isə qeyd etməliyik ki, hələ 2008-ci ildə dövlətimizin başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq Prezident Administrasiyasının sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsində vətəndaşların müraciətlərinə baxılması işini təkmilləşdirmək məqsədilə müasir elektron informasiya sistemi yaradılıb. Belə bir sistemin şəhər və rayon icra hakimiyyətlərində də tətbiqi Prezident tərəfindən zəruri hesab edilib və müvafiq Fərman imzalanıb.

**- Vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin əsas iş prinsipləri nədən ibarətdir?**

- Bu prinsiplər Prezidentin Fərmanında və təsdiq edilmiş Qaydalarda öz əksini tapıb. Fərmanda sistemin təsisçi-administratoru, operatoru və məsul şəxslərinin əsas vəzifələri konkret göstərilib və sistemin 2015-ci il iyulun 1-dək tətbiq olunacağı müəyyən edilib. Sistemin necə işləməli olduğu isə Qaydalarda göstərilib, onun məxfi sənədlərə şamil olunmadığı, digər kargüzarlıq işlərindən ayrı aparıldığı, vətəndaş müraciətlərinin qeydiyyatdan keçirilməsinə, onlara dair təhlillərin, statistik məlumatların və digər hesabatların əldə olunmasına imkan verdiyi konkret müddəalarda ifadə edilib.

Bu Fərmanla elə bir mükəmməl sistem yaradılır ki, ondan eyni vaxtda çoxsaylı istifadəçinin istifadə etməsinin mümkünlüyü ilə yanaşı, bir-biri ilə uzlaşa bilən texnologiyalar, formatlar, protokollar və proqram-texniki vasitələr tətbiq edilir, informasiya sisteminə daxil edilən məlumatların dəqiqliyi, tamlığı, etibarlılığı, eyni zamanda, informasiya təhlükəsizliyi təmin olunur.

Vahid elektron informasiya sistemi yerli icra hakimiyyəti orqanlarına bilavasitə vətəndaşlardan və ya onların müraciətlərinə baxan subyektlərdən daxil olan təklif, ərizə və şikayətlərin operativ qeydə alınmasını, icrasını və arxivləşməsini təmin edən elektron məlumat bazasından və proqram-texniki vasitələrin məcmusundan ibarətdir.

**- Vahid elektron informasiya sisteminin tətbiqi üçün hansı işlər görülüb və görülməkdədir?**

- Təsdiq olunmuş Fərmanda və Qaydalarda sistemin tətbiqinin konkret müddətləri və görüləsi işlər aydın göstərilib. Bu sistem mərkəzləşdirilmiş server avadanlığı, informasiya sistemi istifadəçilərinin iş yerləri, mühafizə olunan rabitə kanalları, texniki vasitələr, yaddaş sistemləri, kommunikasiya avadanlığı, fasiləsiz enerji mənbəyi və digər proqram-texniki vasitələrdən ibarətdir.

Fərman imzalandıqdan dərhal sonra şöbəmiz tərəfindən bu sistemin fəaliyyətini təmin edəcək müvafiq qurumların nümayəndələri ilə birlikdə şəhər və rayon icra hakimiyyətləri aparatlarında müvafiq hazırlıq işlərinə başlanılıb. Müəyyən olunmuş qrafik əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında şəhər və rayon icra hakimiyyətlərinin sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbələri müdirlərinin seminarları keçirilir, onlar müvafiq proqramla tanış edilir, lazım olan texniki vasitələrin, o cümlədən kompyuter avadanlığının alınıb quraşdırılması təşkil olunur. İşin əsas mərhələsi, yəni bilavasitə həmin sistemin yerlərdə quraşdırılıb şəbəkəyə qoşulması qısa vaxtda tamamlanacaq.

Hazırda şəhər və rayon icra hakimiyyətləri aparatlarında bu işi yerinə yetirəcək şəxslərin müəyyən edilməsi başa çatır və yeni proqramın Fərmanda göstərilən müddətdə tətbiq olunmasında heç bir problem yaranmayacaq. Qeyd etmək lazımdır ki, sistemin proqram təminatının təkmilləşdirilməsi və maddi-texniki təchizatının yaxşılaşdırılması üzərində müntəzəm iş gedir, onun müasir tələblərə uyğunlaşdırılması davam etdirilir.

**- İnformasiya sisteminin fasiləsiz və ahəngdar işini kim və necə təşkil edəcək?**

- Qaydalarda həm təsisçi-administratorun, həm operatorun, eləcə də sistemin məsul şəxslərinin və istifadəçilərinin funksiyaları aydın göstərilir. Burada əsas məsuliyyət təsisçi-administratorun üzərinə düşür. Təsisçi-administrator bütün sistemin fasiləsiz və ahəngdar fəaliyyətini təmin etmək üçün cavabdehlik daşıyır. Bununla yanaşı, hər bir iştirakçının vəzifə funksiyaları konkret müəyyənləşdirilib. Burada həm texniki təchizat, proqram təminatı məsələləri, həm də sistem istifadəçilərinin müntəzəm təhsil və təliminin həyata keçirilməsi, informasiya sistemi istifadəçilərinin məlumatları informasiya sistemində vaxtında və düzgün qeydiyyatdan keçirməsi, bu məlumatların dəqiqliyinin, tamlığının və etibarlılığının təmin edilməsi, onların, o cümlədən fərdi identifikasiya kodlarının qorunması, kənar şəxslərin sistemə icazəsiz girişinə yol verilməməsi, istifadə olunan kompyuter avadanlığının virus və digər zərərverici proqramlardan müdafiəsi və digər məsələlər öz əksini tapıb.

Sistemin fəaliyyətinin təşkilinə gəldikdə, Qaydalarda informasiya sisteminin məsul şəxsləri sistemlə əlaqədar bütün problemləri təsisçi-administratorla həll etməli olduğu göstərilib, informasiya sisteminin yerli icra hakimiyyəti orqanlarındakı iş yerlərinin mərkəzi serverlə əlaqələndirilməsi qaydaları, həmçinin Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin bu sahədəki vəzifələri müəyyənləşdirilib.

**- Yeni sistem vətəndaş müraciətlərinə baxılmasına nəzarətin gücləndirilməsinə necə təsir edəcək?**

- Tətbiq olunan yeni sistem təsisçi-administratora imkan verir ki, respublikanın bütün şəhər və rayonlarında vətəndaşların müraciətlərinə, ərizə və şikayətlərinə baxılmasını, həmçinin respublika üzrə sistemə daxil edilən bütün məlumatları mərkəzi server vasitəsilə müşahidə etsin. Hətta müraciətlər barədə məlumatların Prezident Administrasiyasına elektron formada göndərilməsi də bu sistem vasitəsilə təmin ediləcək. Əgər müraciətlərin daxil olduğu andan onların icrası başa çatanadək bütün prosesləri müşahidə etmək mümkündürsə, onda gecikmələrin, yaxud müraciətə vaxtında və düzgün baxılmamasının qarşısı daha tez alına bilər.

**- Yəqin ki, vahid elektron informasiya sisteminin tətbiqi ilə vətəndaşların müraciətlərinə baxılmasına dair kargüzarlıq Qaydalarında da müəyyən dəyişikliklər ediləcək. Həmin Qaydaların yenidən təsdiq edilməsi gözlənilirmi?**

- Bəli, gözlənilir. Ümumiyyətlə, təkcə vətəndaşların müraciətlərinə baxılmasına dair kargüzarlıq Qaydaları deyil, sənədlərlə işlə əlaqədar digər təlimat və qaydalarda da dəyişikliklər edilməsi labüddür. Hazırda Milli Məclisdə müzakirə olunan "Vətəndaşların müraciətləri haqqında" Qanun layihəsi qəbul edildikdən sonra yaranacaq hüquqi normalardan, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "İdarələrarası elektron sənəd dövriyyəsi sistemi haqqında Əsasnamə"dən, həmçinin "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 29 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş Qaydalardan irəli gələn məsələlər müvafiq sənədlərdə öz əksini tapacaq.

Bütün bunlar müasir dövrün tələblərinə uyğun olaraq Azərbaycan dövlətinin daha yüksək tərəqqisini və inkişafının təmin olunması, müxtəlif sahələrdə, o cümlədən sənədləşmə işində ən müasir texnologiyalardan və innovasiyalardan istifadə edilməsi, bununla əlaqədar qəbul edilmiş proqramların həyata keçirilməsi məqsədi daşıyır və hər bir dövlət qulluqçusu, hər bir məmur müasir elektron sənəd dövriyyəsinin əsaslarını öyrənməli və gündəlik işlərində geniş tətbiq etməlidir.

www.e-gov.az

# Azərbaycan Texniki Universiteti və Elektron Hökumət Portalı operatorunun birgə təşəbbüsü ilə elm-təhsil və texnologiyalar birliyi yaradılır




*Son illər ölkəmizdə aparılan uğurlu islahatlar, quruculuq işləri, iqtisadiyyatda baş verən irəliləyişlər qeyri-neft sektorunun, xüsusilə də İKT sektorunun inkişafına müsbət təsir göstərmişdir. Dövlət siyasətinin əsas istiqamətlərindən biri də elm, təhsil və mədəniyyət sahəsinə göstərilən qayğının ardıcıl davam etdirilməsi, elmi-texniki potensialın qorunub saxlanılması, elm və təhsil sahəsində yüksəkixtisaslı kadrların hazırlanması istiqamətində bir sıra mühüm qərarların qəbul edilməsi olmuşdur.*

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş 2014-2020-ci illər üçün "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın və "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiya"nın əsas prinsiplərinə və strateji istiqamətlərinə uyğun olaraq xüsusilə elektron idarəçilikdə yüksək səviyyəli elmi və ixtisaslı kadrların hazırlanması üçün səriştəyə əsaslanan şəxsiyyət yönümlü təhsil məzmununun yaradılması, innovativ təlim metodları və yüksək texnologiyalar vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsil ocaqlarının formalaşdırılması, elm, təhsil və biznes səylərinin birləşdirilməsi və innovativ inkişaf mühitində yeni tərəfdaşlığın formalaşdırılması ali təhsil ilə müəssisələrin möhkəmlənməsindən çox asılıdır.

Qeyd olunanları əsas götürərək Azərbaycan Texniki Universiteti və RYTN MHM-in birgə təşəbbüsü ilə elm-təhsil və texnologiyalar birliyinin yaradılması istiqamətində işlərin icrasına başlanılmışdır. Hər iki müəssisə yeni tərəfdaşlıq əsasında "Elektron idarəçilik, İnformasiya sistemləri və kibertəhlükəsizlik" adlanan elm-təhsil və texnologiyalar birliyinin yaradılması ilə "Elektron idarəçilik, İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi" üzrə ali təhsilli kadrların hazırlığı istiqamətində elm, təhsil və biznes səylərini birləşdirmək niyyətindədir.

İT sahəsində ixtisaslaşmış və peşəkar kadr potensialına malik MHM-in əsas fəaliyyət sahəsi informasiya texnologiyalarının bütün istiqamətlərini əhatə edir.

MHM virtual aləmdə "vətəndaş-dövlət", "dövlət-dövlət" münasibətlərini reallaşdıran "Elektron Hökumət" portalının və elektron dünyanın əsas bazisi olan elektron imza üçün Açıq Açar İnfrastrukturunun (PKİ) – Milli Sertifikat Xidmətləri Mərkəzlərinin, ölkənin bütün ərazisini əhatə edən AzDataCom - yüksək sürətli məlumatların ötürülməsi şəbəkəsinin operatorluğu ilə bərabər, eyni zamanda, dövlət informasiya sistemlərinin və fərdi məlumatlar informasiya sistemlərinin reyestrini və monitorinqini aparmaqla, respublikamızda informasiya sistemlərinin və ehtiyatlarının elektron idarəçilik istiqamətində istifadəsini də əlaqələndirir. Geniş və elm tutumlu fəaliyyət sahəsinə malik olan MHM, yüksək ixtisaslı kadr hazırlığı məsələsinə müstəsna əhəmiyyət verir və bu istiqamətdə daim beynəlxalq və yerli əməkdaşlıqlar quraraq elmi-texnoloji potensialın artırılması istiqamətində səylər göstərir.

Qocaman təhsil müəssisələrindən olan AzTU ölkəmizə kadr potensialı hazırlığında daima öndə olmuşdur və bu gün də peşəkar kadr hazırlığı üçün dünyada gedən tendensiyalardan yararlanmaq istiqamətində davamlı işlər aparır.

Cəmiyyətimizin yaşadığı mövcud informasiya əsrində təcrübə mübadiləsinin böyük əhəmiyyət kəsb etdiyi innovativ elmi inkişaf dövründə AzTU ilə RYTN MHM-nin belə bir elmi-texnoloji tərəfdaşlığının yaradılması zərurətdən irəli gələn bir hadisədir. Milli Strategiya"nın əsas prinsiplərinə və strateji istiqamətlərinə uyğun təşkil olunan bu birlik ali təhsilin yüksək texnologiyalar bazasında inkişafını təmin edəcək və elmi tədqiqatların aparılmasında əlverişli şəraitin formalaşdırılmasına əlavə vasilə olacaqdır.

AzTU və RYTN MHM tərəfindən yaradılan elm-təhsil və texnologiyalar birliyinin fəaliyyət istiqamətləri, tədrisi-metodiki, elmi tətqiqat , elmi-metodiki və təşkilati fəaliyyəti artıq müəyyənləşdirilmişdir. Belə ki, birliyin tədris-metodiki fəaliyyəti Elektron İdarəçilik, İKT biliklərinin, bacarıqlarının və hazırlığının yüksəldilməsi, təhsil üzrə elektron resursların inkişaf etdirilməsi, ali təhsilin tədris planlarının, mütəxəssis hazırlığı proqramlarının mütəmadi olaraq aktuallaşdırılması, ali təhsilin İKT sahəsinin tələblərinə uyğunlaşdırılması, fasiləsiz professional hazırlıq sisteminin təkmilləşdirilməsi və inkişaf etdirilməsi, İKT-nin tətbiqi ilə yeni təhsil modellərinin, o cümlədən distant təhsilin həyata keçirilməsi, İKT üzrə təhsil və təlim almaq imkanı yaratmaqla, informasiya və İKT-dən təhlükəsiz istifadə mədəniyyətinin yüksəldilməsi və sair məsələlər çərçivəsində təşkil ediləcəkdir.

Elm-təhsil və texnologiyalar birliyinin əsas vəzifələri predmet yönlü təhsili fəaliyyət yönlü təhsil ilə əvəz etmək, mövcud problemlərin birgə müzakirəsi üzrə elmi-metodik seminarlar təşkil etmək, elektron idarəçilik üçün yüksək ixtisaslı kadr hazırlamaq, yeni hazırlanan kontentin tətbiqi üzrə "birgə ilkin müzakirə və təqdimatlar keçirmək, habelə, birgə səy nəticəsində tələbələrin müstəqil (dərsdən kənar) və tədqiqat (magistr dissertasiya, buraxılış və kurs işlərinin) işlərinin kataloqunu yaratmaqdır.

Hesab edirik ki, yeni yaradılacaq bu tərəfdaşlığın səmərəli və keyfiyyətli fəaliyyəti nəticəsində ölkəmizdə texnolji yeniliklərin, eləcə də innovativ tətbiqlərin sayı artacaq. Tezliklə, elm-təhsil və texnologiyalar birliyi elm və texnologiya üzrə ən son tədqiqat işləri, elmi mövzulara dair araşdırmaların aparılması, peşəkar kadrların hazırlığı və müvəffəqiyyətli praktiki göstəriciləri ilə seçilən birliklər sırasında olacaqdır. Belə bir birliyin fəaliyyəti bir sıra müsbət yönümlü elmi araşdırmaların, elmlə məşğul olanların gördüyü işlərə, yeni baxışlara stimul verərək gənclərin elmə marağının və elm – texnologiya sahəsində zəncirvari əməkdaşlıqların artmasına da səbəb olacaqdır.

# Nazir vətəndaşların təhsil haqlarını ödəmə imkanlarının "Elektron Hökumət" portalı vasitəsilə dəqiqləşdirilməsinin mümkünlüyündən danışdı

Rabitə və Yüksək Texnologiyalar naziri akademik Əli Abbasov Sumqayıt şəhərində (Sumqayıt, Quba, Qusar, Şabran, Siyəzən, Xaçmaz) vətəndaşları qəbul edib. Qəbul başa çatdıqdan sonra nazir mətbuat nümayəndələrinin suallarını cavablandırıb.

Nazir, görüşdə təhsil haqlarının ödənilməsi ilə bağlı maraqlı məqamlara toxunub. O, bildirib ki, indiyə qədər keçirdiyimiz görüş və qəbulların analizi göstərir ki, təhsil haqlarının ödənilməsi məsələləri ilə bağlı bizə edilən müraciətlər ümumi müraciətlərdən üstünlük təşkil edir. Əsasən övladları ödənişli əsaslarla ali təhsil müəssisəsinə daxil olan valideynlər bu ödənişləri qarşılamaq qabiliyyətində olmadıqlarını, buna güclərinin çatmadığını bildirirlər. Universitetdə çox yaxşı oxuyan, amma ödəmə qabiliyyəti olmadığı üçün tələbənin təhsil müəssisəsindən xaric edilməsi də düzgün olmazdı. Ona görə də biz keçirilən görüşlər və son qəbullardan sonra Təhsil Nazirliyi və Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına təklif irəli sürmək qərarına gəlmişik.

Nazir qeyd edib ki, ödənişli ixtisasları seçəcək abituriyentlərin təhsil haqlarını qaytarma qabiliyyəti qəbul olunacaqları ali təhsil müəssisələri tərəfindən əvvəlcədən araşdırılmalıdır. Bu gün kreditlərin verilməsi və bank əməliyyatlarının rəsmiləşdirilməsində çox yaxşı təcrübə tətbiq olunmaqdadır. Belə ki, "Elektron Hökumət" portalında hər bir vətəndaşın fərdi məlumatları, o cümlədən gəlirləri haqda ətraflı məlumat bazası toplanılıb. Kredit müraciətləri zamanı vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsindən istifadə




olunur. Vahid portalda toplanan bu məlumatlar kreditin qaytarma qabiliyyətinin əvvəlcədən araşdırılmasına da imkan verir. Əgər universitet tələbəni qəbul edirsə, onun təhsil haqqını ödəyib-ödəyə bilməyəcəyini də bilməlidir. Tələbə təhsil ödənişlərini qarşılaya bilmirsə, bu maliyyələşdirmə müəyyən qrantlar, dövlətin təsis etdiyi müvafiq fondlardan vəsait cəlb edilməklə ödənilməlidir. Belə olarsa, o zaman problem də yaranmayacaq. Rabitə və Yüksək Texnologiyalar Nazirliyi olaraq, biz bu gün mühəndis-texniki ixtisasları seçən tələbələrə müəyyən qədər kömək edirik. Amma analizlərimiz göstərir ki, ödənişləri qarşılaya bilməyən şəxslərə bu yolla kütləvi şəkildə yardım etmək mümkün deyil. Ən doğrusu, tələbənin ali məktəbə daxil olub təhsil alacağı dörd il müddətində ödəyəcəyi vəsaitlərin mənbəyi əvvəlcədən araşdırılmalıdır.

# 11-13 may tarixlərində Estoniyanın paytaxtı Tallin şəhərində "e-İdarəçilik" üzrə beynəlxalq konfrans keçirilmişdir

11-13 may tarixlərində Estoniyanın paytaxtı Tallin şəhərində "e-İdarəçilik" üzrə beynəlxalq konfrans keçirilmişdir.

Elektron hökumət quruculuğuna həsr olunan konfransda elektron idarəetmə sahəsi üzrə dünyanın aparıcı ekspertləri, hökumət, biznes, akademiya nümayəndələri, beynəlxalq təşkilatlar, eləcə də vətəndaş cəmiyyəti qrupları iştirak etmişdilər.

Konfransda mühazirəçi qismində Ukrayna Elektron İdarəçilik üzrə Dövlət Agentliyinin birinci müavini Taras Oliinyk, Belçikadan İKT və E-hökumət üzrə nümayəndə Frank Leyman, Estoniyanın Rəqəmsal İdarəçilik Qaydaları üzrə məsləhətçisi Siim Sikkut eləcə də, Azərbaycandan Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini Elmir Vəlizadənin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir.

Konfransın açılış seminarında Estoniyanın prezidenti H.E.Toomas Hendrik Ilves çıxış edərək Estoniyanın "Elektron Hökumət" quruculuğundan bəhs etmişdir. O, "Elektron Hökumət" quruculuğunun əsas üstünlüklərinin - şəffaflıq, effektivlik və cavabdehlik olduğunu xüsusilə vurğulamışdır.

Natiq çıxış edərək konfrans iştirakçılarına Azərbaycanda Elektron İdarəçilik üzrə görülən işlər barədə ətraflı məlumat vermişdir. O, Azərbaycanda qurulmuş "Elektron Hökumət" infrastrukturunun beynəlxalq təcrübəyə əsaslandığını vurğulamışdır. Məruzəçi "Elektron Hökumət" portalı və startup layihələri üzrə də geniş məlumat vermişdir.

RYTN MHM-nin direktoru yarandığı gündən bu günədək portalın keçdiyi inkişaf mərhələləri üzrə ətraflı məlumat vermiş, portal üzərindən təqdim olunan aktual elektron xidmətləri qeyd etmişdir. "Elektron Hökumət" portalı üzrə mövcud statistik göstəriciləri vurğulayan məruzəçi, bu sahədə əldə olunmuş nailiyyətlərin və portala geniş istifadəçi marağının olmasının qurumlar ilə əlaqəli fəaliyyətin nəticəsində əldə olunduğunu qeyd etmişdir.

Moldovanın Estoniyadakı səfiri və Elmir Vəlizadə 13 may tarixində keçirilən bağlanış mərasimində də iştirak etmişdilər. O öz çıxışında qeyd etmişdir ki, bu kimi konfransların təşkil edilməsi bizim üçün yaxşı fürsətdir və belə tədbirlər yeni ideyaların yaranmasına gətirib çıxarır. O, bu cür tədbirlərin "Elektron Hökumət" quruculuğu üzrə ölkələrarası təcrübə mübadiləsinin aparılmasında xüsusi rol oynadığını vurğulamışdır.

Natiq çıxışının sonunda bütün konfrans istirakçılarına bir daha uğurlar arzu edib və tədbirin təşkilatçılarına öz minnətdarlığını bildirmişdir.

Bununla da 11-13 may tarixlərində Estoniyanın paytaxtı Tallin şəhərində keçirilən "e-İdarəçilik" üzrə beynəlxalq konfrans öz işini başa vurmuşdur.

www.e-gov.az

# "Elektron Hökumət" bülleteninin may sayının təqdimat mərasimi keçirildi

7 may tarixində "Elektron Hökumət" portalının operatoru tərəfindən "Elektron Hökumət" bülleteninin may sayının təqdimatı üzrə brifinq keçirildi. Tədbirdə media nümayəndələri və portalda ötən ay ərzində aktiv fəaliyyətləri ilə seçilən bəzi dövlət qurumlarının nümayəndələri iştirak etdilər.




Brifinqin təşkilatçıları, "Elektron Hökumət" quruculuğu sahəsində son yeniliklər və statistik rəqəmlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verdi. Məruzəçi ötən illərlə müqayisədə elektron xidmətlərdən istifadəçi sayının dinamik şəkildə artdığını və hazıradək 1710901 istifadəçinin "Elektron Hökumət" portalı üzərindən elektron xidmətlərdən faydalandığını vurğuladı. O, həmçinin, elektron hökumət, elektron xidmətlərin artıq praktiki istifadə təyinatını tapan real rezursa çevrildiyini nəzərə çatdırdı.

Yerli İcra Hakimiyyəti orqanlarında vahid elektron sistemin yaradılması haqqında ölkə Prezidentinin fərmanı üzrə görülən işlərdən bəhs edərək, sistemin mahiyyətindən danışan məruzəçi portal üzərindən olunan müraciətlərə nəzarət mexanizminin də istifadəyə veriləcəyini bildirdi. Natiq Qaçqınkomla birgə görülən işlər və artıq istismara verilmiş sistem barədə tədbir iştirakçılarına geniş məlumat verdi. Bu istiqamətdə müvafiq qurumla görülən işlərin ötən il yay aylarından etibarən başlanıldığına və cari ilin aprel ayında yekunlaşdırılaraq istifadəyə verildiyini söylədi.

Elektron Hökumət quruculuğu üzrə Mədəniyyət və Turizm Nazirliyinin xidmətlərini vurğulayan məruzəçi daha geniş məlumat üçün sözü müvafiq nazirliyinin əməkdaşına verdi.

Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı çıxış edərək, Nazirlər Kabinetinin 6 aprel 2015-ci il tarixli,102 nömrəli qərarına əsasən mədəniyyət sahəsində elektron məlumat sisteminin təşkili ilə bağlı təsdiq olunmuş qaydalara əsasən görülən tədbirləri gündəmə gətirdi. Bu tədbirlər çərçivəsində 4 elektron servisin data.gov.az portalında yerləşdirildiyini, 2 mobil tərtibatın istifadəyə verildiyini söylədi. 2008-ci ildə qurulmasına start verilən ölkəmizdə ilk GoMap elektron xəritəsinin texniki aspektlərindən bəhs etdi və artıq "Elektron Hökumət" portalı tərəfindən vətəndaşlara təqdim edildiyini söylədi. O, həmçinin, belə xidmətlərin sayının 40-a çatdırılmasının planlaşdırıldığını bildirdi.

Daha sonra, Qaçqınkomun əməkdaşı çıxış edərək yenicə istifadəyə verilmiş "Məcburi köçkünlərə güzəştlər üzrə avtomatik idarə sistemi" barədə məlumat verdi. Sistemin 6 funksional bölmədən təşkil olunduğunu qeyd edərək ictimai əhəmiyyətini nəzərə çatdırdı.

Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz öz çıxışında mətbuat nümayəndələrini ölkədə baş verən elektronlaşma prosesi ilə daha yaxından maraqlanmağa, nöqsanlar və çatışmazlıqlar üzrə araşdırmalar apararaq daha tələbkar olmağa səslədi.

Tədbir mətbuat nümayəndələrinin sualları üzrə müzakirələrlə yekunlaşdı.

# “Elektron Hökumət Təlim-Tədris mərkəzi”ndə “Elektron Hökumət” üzrə təlim kursları keçirildi

**“Elektron Hökumət Təlim-Tədris mərkəzi”ndə “Elektron Hökumət” üzrə keçirilən qısamüddətli təlim kursları davam edir. 25 may-1 iyun tarixlərində keçirilən kurslarda "Elektron Hökumət" portalının operatorunun mütəxəssisləri də iştirak edirlər.**

Kursların ilk günü MHM-in nümayəndələri "Elektron Hökumət" portalına qoşulmanın texniki-funksional sxemi, elektron xidmətlərin inteqrasiyası, elektron xidmətlərin təşkilini zəruri edən amillər, "Elektron Hökumət" portalının hüquqi əsası, xronoloji tarixi, bu sahədə beynəlxalq təcrübələr barədə məlumatları iştirakçıların diqqətinə çatdırılmışdır.

Bu gün isə MHM-nin mütəxəssisləri tərəfindən "Elektron Hökumət”in infrastrukturu, onun əsas komponentləri, "Elektron Hökumət" portalı, Dövlət Reyestrləri, elektron xidmətlər və elektron imza barədə əvvəlcədən müəyyənləşdirilmiş proqram və prezentasiyalar əsasında iştirakçılara geniş məlumat verilib. Davam etməkdə olan kurslarda iştirakçılara nəzəri biliklər verilməklə yanaşı, həm də ən çox istifadə olunan elektron xidmətlər əyani olaraq nümayiş etdiriləcəkdir. Kurslar iştirakçılarla qarşılıqlı müzakirələr və diskussiya şəklində təşkil olunur və iştirakçıları maraqlandıran suallar cavablandırılır.

Belə kursların təşkil olunmasında məqsəd "Elektron Hökumət" quruculuğu üzrə əhalinin məlumatlılıq səviyyəsinin artırılması, portal üzərində təqdim olunan elektron xidmətlərin istifadəçi sferasının genişləndirilməsidir.

# “Startup Azərbaycan 2015” müsabiqəsinin və “Elektron Hökumət” portalının elan etdiyi "Bax, istifadə et, yarat" mobil tərtibatların hazırlanması üzrə müsabiqənin finalçıları elan olundu




**15 may tarixində Park İnn otelində “Startup Azərbaycan 2015”-in milli konfransı keçirildi və “Startup Azərbaycan 2015” müsabiqəsinin və “Elektron Hökumət” portalının elan etdiyi "Bax, istifadə et, yarat" mobil tərtibatların hazırlanması üzrə müsabiqənin finalçıları və fərqlənənlər elan olundu.**

Tədbirdə Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini Elmir Vəlizadə, Azərbaycan İnternet Forumun rəhbəri Osman Gündüz, İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun, CyberNet və SİNAM şirkətlərinin, Elektron Hökumət Portalının, Yüksək Texnologiyalar Parkının, “Fabrika”- Kovorkinq Mərkəzinin nümayəndələri, startup komandaları, investorlar, İT şirkətlər, mentorlar və ekspertlər iştirak edirdilər.

Tədbiri giriş sözü ilə açıq elan edən O.Gündüz sözü nazir müavini E.Vəlizadəyə verdi.

E.Vəlizadə ölkəmizdə İKT sahəsinin inkişafına ən yüksək səviyyədə diqqət verildiyindən və startup layihələrinin əhəmiyyətindən bəhs etdi. O, xarici ölkələrin bu sahədəki təcrübəsi barədə məlumat verdi və bu kimi layihələrə xüsusi önəm verildiyini vurğuladı. Azərabycanda da startup layihələrinə həmişə RYTN tərəfindən hər cür dəstək verildiyini və gələcəkdə də bu dəstəyin davam etdiriləcəyini vurğuladı. Natiq tədbir iştirakçılarını daha aktiv olmağa, onları ciddi və aktual əhəmiyyət kəsb edən layihələr hazırlayıb təqdim etməyə səslədi.

Digər təşkilatçılar da çıxış edərək tədbirin əhəmiyyətindən, bu sahədə beynəlxalq təcrübədən bəhs etdilər və gəncləri daha aktiv və təmkinli olmağa səslədilər. Qeyd olundu ki, dünyanın hər yerində startup layihələrin orta hesabla 5-10 %-i uzunmüddətli olur, qalanlar isə bazar iqtisadiyyatının sərt tələblərinə cavab vermədiyindən sıradan çıxır. Buna baxmayaraq həvəsdən düşmək olmaz və bu sahədə səbirli və təmkinli olmaq çox vacibdir.

Sonra “Elektron Hökumət” portalının nümayəndəsi çıxış edərək qeyd etdi ki, cari ilin yanvar ayında "www.data.gov.az” portalı istifadəyə verilmişdir və hazırda portalda müxtəlif dövlət qurumları üzrə 21 adda məlumat bazaları açıq edilmişdir. Qeyd olundu ki, açıq məlumatların sayının artırılması məqsədilə bir sıra tədbirlər həyata keçirilir və tezliklə gözlənilən nəticələr əldə olunacaqdır. Açıq məlumatların istifadəsi üzrə mütəmadi olaraq təbliğat xarakterli müxtəlif tədbirlər həyata keçirilir. Cari ilin yanvar ayında portalın operatoru tərəfindən "Bax, istifadə et, yarat" adlı veb və mobil tərtibatların hazırlanması müsabiqəsinə start verilmişdir. Məruzəçi qeyd etdi ki, bu müsabiqə “Startup” müsabiqəsi ilə birgə həyata keçirilmişdir və müsabiqəyə maraqlı layihələr təqdim edilmişdir. Qeyd edildi ki, müsabiqənin elan edilməsindən keçən dövr ərzində bir çox ali təhsil müəssisələrində, kolleclərdə müxtəlif seminarlar təşkil olunmuş, startupçılarla görüşlər keçirilmiş və iştirakçılara izahlı məlumatlar verilmişdir.

Məruzəçi çıxışının sonunda bildirdi ki, portaldakı açıq məlumatlardan istifadə edərək bir çox veb və mobil tərtibatların hazırlanması mümkündür və o, startupçıları data.gov.az-dakı məlumatlardan istifadə edərək layihələr hazıralamağa və daha aktiv olmağa dəvət etdi.

Tədbir iştirakçıların maraqlı sualları və təklifləri əsasında diskussiya şəklində davam etdi.

Tədbirin sonunda finalçılar və aşağıdakı nominasiyalar üzrə fərqlənənlər öz startupları ilə tədbir iştirakçıları qarşısında qısa müddətli təqdimatlarını etdilər və onlara diplomlar və qiymətli hədiyyələr təqdim olundu:

- Ən motivasiyalı komanda
- GoMap mobil tətbiqləri
- E-gov mobil tətbiqləri

Bununla da tədbir başa çatdı.

www.e-gov.az

# Sosial sığorta müavinətlərinin ödənilməsi elektron xidmətlər vasitəsilə reallaşdırılır

Dövlət Sosial Müdafiə Fondu "Sosial sığorta müavinətlərinin ödənişinin avtomatlaşdırılması" mövzusunda dövlət və özəl sektoru təmsil edən sığortaedənlərin səlahiyyətli nümayəndələrinin iştirakı ilə təqdimat-seminar keçirib.

Tədbiri giriş sözü ilə açan DSMF sədrinin müavini Zakir Babayev ötən dövr ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurlu sosial siyasət və sürətli islahatların həyata keçirilməsi nəticəsində ölkəmizdə vahid prinsiplər əsasında fəaliyyət göstərən və təyin olunan pensiyaların məbləğinin sistemə ödənilmiş və fərdi uçotu aparılmış sosial sığorta haqlarına bağlı olan müasir sığorta-pensiya sisteminin qurulduğunu vurğulayıb. Sədr müavini qeyd edib ki, çoxsaylı pensiyaçı və sığortaolunanlar kontingentinə qabaqcıl beynəlxalq təcrübəyə uyğun avtomatlaşdırılmış xidmətin təşkili məsələlərinin həllində Fond öz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışır. Z.Babayev ölkəmizin sığorta-pensiya sistemində təqdim olunan elektron xidmətlərin pensiyaçılar, sığortaedənlər və sığortaolunanlar üzrə olmaqla üç istiqamətdə aparıldığını diqqətə çatdırıb.

Tədbirdə təqdimatla çıxış edən DSMF-nin şöbə müdiri Fərid Baxşıyev bildirib ki, sığorta-pensiya sisteminin yeni inkişaf mərhələsində prioritet hədəflər Azərbaycan Respublikasının Prezidentinin 4 noyabr 2014-cü il tarixli sərəncamı ilə "2014-2020-ci illərdə pensiya təminatı islahatı konsepsiyası"nın çərçivəsində müəyyən olunub. Konsepsiyanın əhəmiyyətindən bəhs edən F. Baxşıyev sənədin ölkəmizdə pensiya təminatı sisteminin formalaşmasında beynəlxalq inkişaf tendensiyalarının nəzərə alınması və pensiya təminatının daim yenilənən müasir tələblərə uyğunlaşdırılması, inkişaf etmiş ölkələrin bu sahədə təcrübəsindən istifadə edilməklə uzunmüddətli dövr üçün pensiyaçıların etibarlı sosial müdafiəsinə nail olunması məqsədi daşıdığını vurğulayıb.

Daha sonra DSMF-nin əməkdaşları təqdimatlarla çıxış edərək tədbir iştirakçılarını Fondun göstərdiyi elektron xidmətlər, eləcə də məcburi dövlət sosial sığorta haqları hesabına verilən müavinətlərin təyin edilməsi, hesablanması və ödənilməsi ilə bağlı şərt və qaydalar, müavinətlərin təyin olunması üçün zəruri sənədlər, qanunvericilikdə müəyyən edilmiş tələblər barədə ətraflı məlumatlandırıblar.

Diqqətə çatdırılıb ki, hazırda Fondun mərkəzi məlumat bazasında 1 milyon 293 min pensiyaçı, 3 milyon 041 min sığortaolunan barədə müvafiq məlumatlar toplanmışdır ki, bu da ölkə əhalisinin 45 faizini təşkil edir. "Elektron hökumət" portalının statistikasına əsasən DSMF-nin göstərdiyi elektron xidmətlərin ən çox istifadə olunan xidmətlər sırasında ilk yerləri tutduğu qeyd edilib.

Bildirilib ki, DSMF-nin sosial sığorta haqları hesabına ödənilən müavinətlərlə bağlı sığortaedənlərə göstərdiyi elektron xidmətlər hər bir müavinət növü üzrə ayrıca təşkill olunmuşdur. Bu xidmətlər aşağıdakı 5 növ müavinətlər üçün müraciətlərin elektron qaydada DSMF-yə təqdim olunmasını nəzərdə tutur:

***1) əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət;***
***2) hamiləliyə və doğuma görə müavinət;***
***3) uşağın anadan olmasına görə müavinət;***
***4) uşağa qulluğa görə müavinət və***
***5) dəfn üçün müavinət.***

Qeyd olunub ki, qüvvədə olan qanunuvericiliyə əsasən, müavinətlərin təyin olunması işçinin işlədiyi sığortaedəndə fəaliyyət göstərən müvafiq komissiya tərəfindən yerinə yetirilir. Sonra zəruri sənədlər sığortaedən tərəfindən müraciətlə birgə DSMF orqanına elektron qaydada təqdim olunur. DSMF orqanı qeyd edilən sənədlər əsasında müavinətin bilavasitə işçinin plastik kart hesabına dərhal ödənişini həyata keçirir.

Sonra tədbir sosial sığorta müavinətləri sahəsində aktuallıq kəsb edən məsələlərə dair təşkil olunan praktik müzakirələrlə davam edib, iştirakçıların mövzu ilə bağlı sualları cavablandırılıb və təkliflərinə dair fikir mübadiləsi aparılıb.

# Elektron Hökumət" portalına daha bir qurum inteqrasiya etdi

**"Elektron Hökumət" portalının operatoru və Mədəniyyət və Turizm Nazirliyinin birgə əməkdaşlığı sayəsində müvafiq qurum "GoMap elektron xəritə" xidməti ilə portala inteqrasiya etdi. Bu gündən etibarən vətəndaşlar "Elektron Hökumət" portalına daxil olaraq "GoMap" elektron xəritəsindən istifadə edə biləcəklər.**

Xəritənin yaratdığı imkanlar arasında nəqliyyat yolları haqqında, iki obyekt arasında marşrutun müəyyən edilməsi, ictimai nəqliyyatın hərəkət istiqamət və s. bu kimi imkanlar mövcuddur. Müvafiq proqram vasitəsilə, həmçinin, istənilən obyektin (otel, məktəb, idman kompeksi, bank və s.) axtarışı mümkündür.

# “Azərişıq" ASC də “Elektron Hökumət” portalına inteqrasiya edildi

Dövlət orqanlarının elektron xidmətlərindən "bir pəncərə” prinsipi əsasında istifadənin təşkili üçün “Elektron Hökumət” portalının təkmilləşdirilməsi, elektron xidmətlərin təşkili sahəsində görülən işlərin səmərəliliyinin artırılması, dövlət orqanlarının elektron xidmətlərindən geniş istifadə edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanına uyğun olaraq dövlət orqanlarının portala inteqrasiyası üzrə həyata keçirilən tədbirlərin nəticəsi olaraq daha bir dövlət qurumu portala inteqrasiya edildi.

06.05.2015-ci il tarixdə “Elektron Hökumət” portalının operatoru və “Azərişıq” ASC-nin aidiyyatı nümayəndələrinin iştirakı ilə keçirilən toplantıda qəbul edilmiş qərara əsasən görülmüş birgə işlərin nəticəsində “Azərişıq” ASC portala qoşuldu və bu gün “Texniki Şərt üçün müraciət forması” adlı elektron xidmət portal üzərindən vətəndaşlara təqdim etdi.

Sözügedən elektron xidmət vasitəsilə istifadəçilər elektrik təchizatına qoşulmaq üçün texniki şərtlərin verilməsi barədə “Azərişıq” ASC-yə müraciət edə biləcəklər. İstifadəçi portalda qeydiyyatdan keçib xidmətə daxil olan zaman onun şəxsiyyət vəsiqəsində olan məlumatlar İAMAS-dan götürülərək avtomatik olaraq doldurulur. Obyektin elektrik şəbəkəsinə qoşulması haqqında texniki şərtlərdə qoşulma nöqtələri, gərginliyin səviyyəsi, qoşulması nəzərdə tutulmuş gücə müvafiq olaraq mövcud şəbəkəni gücləndirmək haqqında əsaslandırılmış tələblər, elektrik enerjisinin keyfiyyət göstəricilərinə, reaktiv gücün kompensasiyasına və istehlakına verilən tələblər, elektrik enerjisinin uçotuna olan tələblər və s. göstərilir.

Qeyd edək ki, “Azərişıq” ASC-nin 100 minə yaxın abunəçi üzrə ev telefon nömrəsi və FİN üzrə məlumatlar MHM tərəfindən təyin edilərək əlavə edilmiş və "Azərişıq" ASC-ə təqdim edilmişdir. Bu istiqamətdə işlər davam etdirilir və birinci mərhələdə Bakı şəhəri üzrə abunəçilər, ikinci mərhələdə isə region abunəçiləri (əvvəlki Azərnerji abunəçiləri) üzrə məlumatların portala inteqrasiyası nəzərdə tutulur. Hazırda, "Azərişıq" ASC üzrə bir neçə digərr xidmətlərin elektronlaşdırılaraq portala interqasiyası üzərində birgə işlər aparılır.

Portal üzərindən,

- ***Enerji haqlarının internet vasitəsilə ödənilməsi***
- ***İşıq kodunun yeni abunəçinin adına keçirilməsi üçün e-müraciət;***
- ***İstehlakçıların elektrik şəbəkəsinə qoşulması üçün e-müraciət;***
- ***Enerji borcu olmaması barədə elektron arayış***

kimi elektron xidmətlər təqdim ediləcəkdir.

İlkin mərhələdə portalda qeydiyyatdan keçən istifadəçinin FİN-ə görə işıq kodunun avtomatik təyin edilməsi və avtomatik təyin edilmə mümkün olmadıqda abonent kodunu əllə daxil edilməsi imkanları yaradılması nəzərdə tutulur.

Bu elektron xidmətin “Elektron Hökumət” portalına inteqrasiya olunması ilə portalda təqdim olunan xidmətlərin sayı 420-yə çatdı.

# Növbəti seminar ADA Universitetində təşkil olundu

"Elektron Hökumət" portalının operatoru tərəfindən növbəti seminar ADA Universitetinində təşkil olundu. Seminarda MHM-in əməkdaşları tərəfindən tələbələrə "Elektron Hökumət", E-hökumət portalı, "E-imza", "Dövlət Reyestrləri” barədə geniş məlumat verildi.

MHM Milli Sertifikat Xidmətləri Mərkəzinin müdiri Arif Mayılov seminarı açıq elan etdi. O, XXI əsrdə rəqəmsal-laşmanın, elektron xidmətlərin rolundan bəhs etdi.

Sonra MHM-in mütəxəssisi Günay Hüseynova ADA Universitetinin tələbələrinə Elektron Hökumətin infrastruk-turu, e-xidmətlər, e-arayışlar, prezentasiya üzrə geniş məlu-mat verdi. "Elektron Hökumət"in yaradılmasını zəruri edən amillərdən, onun hüquqi əsasından bəhs edildi. "Elektron Hökumət" quruculuğunun ictimai mahiyyəti və üstünlüklə-rini açıqlandı. Bir çox e-xidmətlər əyani olaraq test edildi və tədbir iştirakçılarına izahlı məlumat verildi.

MHM-in Dövlət Reyestrləri şöbəsinin mütəxəssisi Qadir Seyidov portalın əsas komponetlərindən olan dövlət informa-siya reyestrləri və fərdi məlumatların informasiya sistem-lərindən danışaraq, bu prosesin əhəmiyyəti, informasiya reyestrləri və fərdi informasiya sistemlərinin elektronlaşmada indiki rolundan, həmçinin, gələcək perspektivlərindən bəhs etdi. "Elektron Hökumət" portalı üzərindən qurumlararası informasiya mübadiləsinin mühüm əhəmiyyətini vurğalayan məruzəçi bu sahədə əməkdaşlıqların davam etdirildiyini vurğuladı.



Daha sonra, A.Mayılov öz çıxışında e-imzanın mahiyyəti və əhəmiyyəti, e-imza sertifikatlarının e-sənəd mübadiləsində rolundan bəhs etdi. E-imzanın həm imza kimi, həm də "Elektron Hökumət" portalının autentifikasiya vasitələrindən biri kimi funksiyalarını diqqətə çatdırdı. Məruzəçi e-imza infrastrukturunun texniki tərəflərini izah etdi, mərkəz tərəfindən informasiya təhlükəsizliyi sahəsində görülən işlərdən danışdı. Eyni zamanda o, yeni nəsil şəxsiyyət vəsiqələrinin tətbiqindən sonra e-xidmətlərdən və e-imzadan istifadənin kütləviləşəcəyini xüsusilə vurğuladı.

Seminar iştirakçıların sualları ilə diskussiya şəklində davam etdi. Sonda aktiv üç iştirakçı xüsusi hədiyyələrlə mükafatlandırıldı. Seminarın bütün iştirakçılarına portala daxil olmaq üçün kod/parollar paylanıldı və e-imza sertifikat-ları hədiyyə edildi.

www.e-gov.az

# Elektron arayışların daha geniş şəkildə tətbiqi məsələləri Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yanında Elektron Xidmətlərin Təşviqi üzrə İctimai Şuranın toplantısında müzakirə edildi

Arayışlar hüquqi sənəd olaraq subyekt barədə müvafiq informasiyanı təsdiqləmə vasitəsi kimi ölkəmizdə demək olar ki əksər fəaliyyət sahələrində tətbiq olunur. Real faktdır ki, kağız üzərində olan ənənəvi arayışların (həmçinin, bu qisimdən olan bütün sənədlərin) əldə olunması zamanı yaşanan qayğıların aradan qaldırılması öz həllini çoxdan gözləməkdə idi. "Elektron Hökumət" infrastrukturunun yaradılması ilə bu tip, ilk baxışdan kiçik görünən lakin ətraflı təhlil etdikdə mühüm sosial tıxac, maneə xarakteri daşıyan qayğıların tamamilə aradan qaldırılmasına münbit şərait yarandı.




«Elektron Hökumət" portalının operatoru - RYTN-nin Məlumat Hesablama Mərkəzi ötən ildən mövcud informasiya resurlarını və texniki imkanları birləşdirərək portal üzərindən vətəndaşlara elektron arayışların formalaşdırılması xidmətini təqdim etdi. Bu xidmət tezliklə bütün vətəndaşlar tərəfindən qiymətləndirildi və portal tərəfindən vətəndaşlara təqdim edilən "Elektron arayışlar"-ın çeşidi və istifadə dinamikası hər ötən gün artmaqdadır. Hazırda "Elektron Hökumət" portalı vasitəsilə vətəndaşlara aşağıdakı 9 növdə e-arayışlar təqdim edilir:

- ***Diplom haqqında arayış***
- ***Rabitə xidmətlərinə görə borcun olmaması barədə arayış***
- ***Şəxsiyyət vəsiqəsi məlumatları üzrə arayış***
- ***Vətəndaşa aid fərdi məlumatlar üzrə arayış***
- ***Yaşayış yeri haqqında arayış***
- ***İş yerinə dair arayış***
- ***Vətəndaş haqqında "Tələbə-Məzun" dövlət elektron məlumat sistemindən çıxarış***
- ***Ümumtəhsil məktəblərində çalışan pedaqoji və texniki heyətin iş yeri haqqında e-arayış***
- ***Ümumtəhsil məktəbləri şagirdlərinin təhsil aldıqları yer haqqında e-arayış***

"Elektron Hökumət" portalı vasitəsilə təqdim edilən arayışlar portal tərəfindən e-imza ilə imzalandığından, eyni zamanda QR-kod və ştrix kodla təsdiqləndiyindən "Elektron imza və elektron sənəd haqqında Azərbaycan Respublikasının Qanunu"nun 24.4 bəndinə əsasən, portal tərəfindən formalaşdırılan elektron arayışlar eyni məzmunlu kağız üzərində olan arayışlarla bərabər hüquqi qüvvəyə malikdirlər.

Qeyd edək ki, bütün e-arayışlara portal tərəfindən unikal İD kod verilir və portalda "Elektron arayışların yoxlanılması" e-xidməti vasitəsilə İD kod, QR-kod və ştrix kod vasitəsilə arayışın həqiqiliyini yoxlamaq mümkündür.

Yuxarıda qeyd edildiyi kimi e-arayışlardan istifadə dinamikası hər ötən gün artmaqdadır. İlk e-arayışların istifadəyə verilməsindən 6 aya yaxın vaxt keçməsinə baxmayaraq, Banklar tərəfindən 130 minə yaxın vətəndaşa e-arayışlar əsasında müxtəlif kreditlər verilib. Əksər arayışların istifadəyə verilməsindən 1-2 ay keçməsinə baxmayaraq, statistikaya nəzər saldıqda, həmin arayışlardan da xeyli istifadə olunduğunun şahidi oluruq.

Amma, qeyd etmək lazımdır ki, əgər e-arayışların təbliğatı yüksək səviyyədə aparılsa və bütün qurumlar təqdim edilən e-arayışları maneəsiz qəbul etsələr, e-arayışlardan istifadə bəlkə də 100 dəfələrlə çox olar.

Qeyd olunan məsələlər bu gün Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yanında Elektron Xidmətlərin Təşviqi üzrə İctimai Şuranın toplantısında müzakirə edildi.

Tədbirdə Azərbaycan İnternet Forumunun prezidenri Osman Gündüz, ASAN xidmətin şöbə müdiri Ceyhun Salmanov, MHM-in şöbə müdiri İlqar Abdullayev, QHT-lərin nümayəndələri və mütəxəssislər iştirak edirdilər.

O.Gündüz və əksər iştirakçılar tərəfindən qeyd olundu ki, e-arayışlar tam hüquqi qüvvəyə malıikdirlər və hazırda bu arayışların tətbiqi üçün heç bir hüquqi maneə yoxdur. Lakin bəzi qurumlar tərəfindən e-arayışlar qəbul edilmir, bu da vətəndaşların bu sahəyə olan inamını azaldır və ölkədə gedən elektronlaşma prosesinə mane olur.

C.Salmanov bildirdi ki, təqdim edilən e-arayşılarla bağlı hər hansı problem yaşanmaması üçün mülkiyyətlərində olan informasiya sistemlərinə əsasən e-arayış formalaşan qurumların, rəsmi olaraq verilən arayışların dəqiqliyinə görə onların məsuliyyət daşıdıqları bir daha nəzərlərinə çatdırılmalıdır.

İ.Abdullayev tərəfindən e-arayışların vətəndaşlar tərəfindən yüksək qiymətləndirildiyi və qısa müddət ərzində geniş populyaqrlıq qazandığı qeyd olundu. Məruzəçi tərəfindən təklif olundu ki, ASAN xidmət mərkəzlərində e-arayışların reklam lövhələri yerləşdirilsə və vətəndaşlara e-arayışlar təqdim olunsa, e-arayışlardan istifadə sayı dəfələrlə artar və bu sahənin inkişafına təkan verilmiş olar. Bu təklif müsbət qarşılandı və təklifə baxılacağı bildirildi.

Digər iştirakçılar da müzakirə edilən məsələlrlə bağlı öz fikirlərini bildirdilər.

Müzakirənin nəticəsi olaraq Təkliflər paketi hazırlanaraq ASAN xidmətə və "Elektron hökumət" portalının operatoruna təqdim olunacağı və gələcəkdə belə müzakirələrin mütəmadi olaraq keçiriləcəyi qərara alındı.

# Əmrahbank ASC, Parabank ASC, Turan bank və bank Standart elektron arayışların üstünlüklərindən faydalanmağa başladı

2014-cü ilin ikinci rübündən etibarən vətəndaşların istifadəsinə verilmiş elektron arayışlar, mahiyyət etibarilə vacibliyini tezliklə təsdiq etdi. Qısa zaman kəsiyində "Elektron Hökumət" portalı üzərindən e-arayışlardan faydalanan istifadəçilərin sayı sürətlə artmış, portal ilə əməkdaşlıq edən qurumların sayı çoxalmışdır. Cari ildən isə e-arayışların növləri sayca çoxalmış və sosial həyatın demək olar ki, bir çox sahələrini əhatə etməyə başlamışdır.

E-arayış artıq rahatlıq, vaxta qənaət, məmur-vətəndaş münasibətlərinin sonu, nəticə etibarı ilə isə vətəndaş məmnunluğu deməkdir. Bunu nəzərə alaraq, Amrahbank ASC, Parabank ASC, Turanbank və bank Standart da e-arayışlardan faydalanmaqla müştərilərinə daha rahat, şəffaf və çevik xidmət göstərəcəkdir. Bu proses müştəri məmnunluğu ilə yanaşı iş potensialının artırılmasına zəmin yaradacaqdır.

Belə ki, "Elektron Hökumət" portalının operatoru - Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi və sözügüdən bank arasında birgə əməkdaşlıq nəticəsində artıq bu bankların müştəriləri də "Elektron Hökumət" portalı (www.e-gov.az) üzərindən tələb olunan arayışları formalaşdıraraq elektron şəkildə banka göndərə biləcəklər. Bununla əlaqədar olaraq adı çəkilən banklarda lazımi şərait yaradılmış, e-arayışların yerindəcə əldə olunması üçün müvafiq terminallar quraşdırılmışdır.

**E-arayışı**

- *sutkanın istənilən vaxtı əldə etmək olar;*




- *arayışı əldə etmək üçün bir neçə təşkilata baş vurmağa ehtiyac yoxdur. Arayış portal vasitəsilə asanlıqla formalaşdırılır və lazımi ünvana elektron şəkildə göndərilir;*
- *arayış dövlət informasiya ehtiyatlarının məlumatları əsasında formalaşır, bu da məlumatların dəqiqliyinə zəmanət verir;*
- *e-arayış kağız üzərində olan arayışlarla eyni hüquqi qüvvəyə malikdir.*

Qeyd edək ki, "Elektron Hökumət" portalı üzərindən hazırda 9 növdə (iş yerindən, yaşayış yerindən, diplom haqqında və s.) elektron arayış əldə etmək mümkündür.

# "Elektron Hökumət" portalı "ONLAYN KONSULTASİYA" xidmətini təqdim edir

"Elektron hökümət" portalı may ayından vətəndaşlara 420 elektron xidmət təqdim etməkdədir. Eyni zamanda "Elektron hökumət" portalı fəaliyyətə başladığı vaxtdan öz işini istifadəçi tələbatı və marağı üzərində mərkəzləşdirmişdir. 2012-ci ildə fəaliyyətinə 50-ə yaxın elektron xidmətlə başlamasına baxmayaraq qısa müddətdə sosial xidmətlərin elektronlaşması istiqamətində xeyli işlər görülmüş, portal üzərində bir çox istifadəçi yönümlü funksionallıqlar yaradılmışdır. Portal "Fikir Bankı", "Mənim xidmətlərim", "Əks Əlaqə", "Şəxsi Kabinet" kimi funksionallıqları ilə istifadəçilərin rəğbətini qazanmışdır.

Bu gündən etibarən isə "Elektron Hökumət" portalı üzərindən daha bir servis vətəndaşlara təqdim olunur. "Onlayn Konsultasiya" adlanan bu xidmət vasitəsilə vətəndaşların portala müraciəti zamanı yaşana biləcək istənilən sual və problemlər dərhal yerindəcə öz həllini tapacaq. Bu servis - vətəndaşların irad, təklif və şikayətlərinin dərhal qeydə alınaraq, operativ tədbirlər görülməsi üçün mükəmməl vasitədir.

"Onlayn Konsultasiya" xidmətinə daxil olaraq vətəndaş ad, soyadını, elektron poçt ünvanını qeyd etməli, sual və ya təkliflərin cavablanması üçün müvafiq istiqaməti seçməli,




daha sonra, müraciətini ətraflı şərh etməlidir.

*Onlayn Konsultasiya xidməti yalnız iş vaxtı xidmət göstərir.*
**İş vaxtı:** 09:00 - 18:00
**Nahar fasiləsi:** 13:00 - 14:00

Qeyd edək ki, "Elektron Hökumət" portalının başlıca hədəfi səmərəli xidmətlər təklif edərək vətəndaş məmnuniyyətini təmin etməkdir.

www.e-gov.az

## 01.05.2015 – 31.05.2015-ci il dövrü ərzində "Elektron Hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Namizədlərin (abituriyentlərin, bakalavrların, namizədlərin (rezidenturaya sənəd verənlər) ərizələrinin onlayn qəbulu | TQDK | 261307 |
| 2 | Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi | TQDK | 227503 |
| 3 | Namizədlərə imtahana buraxılış vərəqələrinin internet vasitəsilə verilməsi | TQDK | 187112 |
| 4 | Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 113827 |
| 5 | Mobil nömrə daşınması xidməti vasitəsilə digər şəbəkəyə daşınmış nömrələr barədə məlumatın verilməsi | RYTN | 90352 |
| 6 | Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 84426 |
| 7 | Telefon nömrəsi üzrə axtarış | RYTN | 67897 |
| 8 | Uşağın üç yaş tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 55545 |
| 9 | Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 42186 |
| 10 | Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi | ƏƏSMN | 40359 |
| 11 | Namizədlərin elektron ixtisas seçimi ərizələrinin onlayn qəbulu | TQDK | 38029 |
| 12 | Mobil cihazların qeydiyyatdan keçirilməsi | RYTN | 34193 |
| 13 | Mobil cihazların IMEI kodunun yoxlanılması | RYTN | 33520 |
| 14 | Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 28127 |
| 15 | Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi | RYTN | 20430 |
| 16 | Portal üzərindən istifadəçi qeydiyyatı | Elektron Arayışlar | 17714 |
| 17 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 15313 |
| 18 | İş yerinə dair arayış | ƏƏSMN | 13401 |
| 19 | Vətəndaşa aid fərdi məlumatlar üzrə arayış | Elektron Arayışlar | 9540 |
| 20 | Sığortaolunanlara məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 9007 |

## 01.06.2015-ci il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 81 | 165 | 246 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 31.05.2015 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 20845 | 6099 | 7534 | 34478 |

## 2015-ci ilin may ayı ərzində bütün qurumlar üzrə "Elektron Hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 15 | 729552 |
| 2 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 43 | 257231 |
| 3 | Dövlət Sosial Müdafiə Fondu | 15 | 254294 |
| 4 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 6 | 169717 |
| 5 | Elektron Arayışlar | 14 | 39306 |
| 6 | Daxili İşlər Nazirliyi | 3 | 3762 |
| 7 | Təhsil Nazirliyi | 5 | 2089 |
| 8 | Mədəniyyət və Turizm Nazirliyi | 1 | 1844 |
| 9 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 5 | 1235 |
| 10 | Dövlət Gömrük Komitəsi | 6 | 1089 |
| 11 | "Azərsu" ASC | 2 | 1006 |
| 12 | Mərkəzi Seçki Komissiyası | 7 | 937 |
| 13 | Əmlak Məsələləri Dövlət Komitəsi | 5 | 663 |
| 14 | Azərişıq ASC | 2 | 608 |
| 15 | Səhiyyə Nazirliyi | 6 | 463 |
| 16 | Milli Arxiv İdarəsi | 2 | 436 |
| 17 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 352 |
| 18 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 270 |
| 19 | Satınalmalar üzrə Dövlət Agentliyi | 8 | 242 |
| 20 | Ədliyyə Nazirliyi | 2 | 239 |
| 21 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2 | 211 |
| 22 | "AzərEnerji" ASC | 1 | 144 |
| 23 | Dövlət Statistika Komitəsi | 4 | 143 |
| 24 | Vergilər Nazirliyi | 6 | 136 |
| 25 | Nəqliyyat Nazirliyi | 4 | 135 |
| 26 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 119 |
| 27 | Baş Prokurorluq | 1 | 82 |
| 28 | Kənd Təsərrüfatı Nazirliyi | 15 | 79 |
| 29 | "Aqroliziq" Açıq Səhmdar Cəmiyyəti | 1 | 76 |
| 30 | Dövlət Sərhəd Xidməti | 2 | 69 |
| 31 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 67 |
| 32 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 11 | 59 |
| 33 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 56 |
| 34 | Xarici İşlər Nazirliyi | 1 | 48 |
| 35 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 46 |
| 36 | Fövqəladə Hallar Nazirliyi | 3 | 44 |
| 37 | Dövlət Miqrasiya Xidməti | 1 | 39 |
| 38 | İqtisadiyyat və Sənaye Nazirliyi | 1 | 39 |
| 39 | Gənclər və İdman Nazirliyi | 4 | 39 |
| 40 | Dövlət Dəniz Administrasiyası | 13 | 36 |
| 41 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 35 |
| 42 | Energetika Nazirliyi | 5 | 27 |
| 43 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 8 | 24 |
| 44 | Müəllif Hüquqları Agentliyi | 4 | 21 |
| 45 | Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2 | 18 |
| | **CƏMİ** | **262** | **1467127** |

www.e-gov.az

## "E-hökumət" portalında olan e-xidmətlərin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş siyahı ilə

# MÜQAYİSƏLİ TƏHLİLİ

*01.06.2015*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 26 | 1 | 3 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 25 | 17 | 17 | 16 | 14 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 10 | 3 |
| 6 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 7 | 8 | 11 | 5 |
| 7 | Vergilər Nazirliyi | 62 | 57 | 59 | 58 | 58 |
| 8 | Energetika Nazirliyi | 8 | 5 | 5 | 5 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 15 | 10 | 12 | 15 | 14 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 15 | 14 | 19 | 21 | 14 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 18 | 18 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 1 | 1 | 5 | 2 |
| 13 | Təhsil Nazirliyi | 8 | 4 | 6 | 12 | 5 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 32 | 32 | 31 | 31 |
| 15 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 16 | 15 | 34 | 26 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 6 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 9 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 27 | 25 | 31 | 31 | 26 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 6 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 21 | 11 | 12 | 21 | 21 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 6 | 6 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 14 | 14 | 15 | 14 | 14 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 11 | 10 | 10 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 4 | 4 | 5 | 5 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 37 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 38 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 1 | 8 | 2 | 2 |
| 39 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 4 | 3 |
| 40 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 41 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 42 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| | **CƏMİ:** | **461** | **338** | **398** | **461** | **401** |

| | DÖVLƏT QURUMUNUN ADI | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | "Meliorasiya və su təsərrüfatı" ASC | | | 2 | 2 | |
| 2 | "Azərsu" ASC | | | 2 | 3 | |
| 3 | "Azərenerji" ASC | | | 2 | 3 | |
| 4 | Mərkəzi Seçki Komissiyası | | | 6 | 9 | |
| 5 | Baş Prokurorluq | | | 1 | 1 | |
| 6 | Biləsuvar Rayon İcra Hakimiyyəti | | | 1 | 1 | |
| 7 | "Azərişıq" ASC | | | 2 | 1 | |
| 8 | Elektron Arayışlar | | | 6 | | |
| | **CƏMİ:** | | | **22** | **20** | |
| | **YEKUN** | **461** | **338** | **420** | **481** | **401** |

# "Elektron Hökumət" portalına daxil olanların sayı 1 891 533 nəfərə çatdı




Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) "Elektron Hökumət" portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2015-ci ilin may ayının 31-ə qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 6,655,140 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 1,891,533 nəfər olub. Belə ki, 1,891,533 nəfər ümumən 6,655,140 dəfə portala baxıb və 11,629,805 dəfə elektron xidmətlərə müraciət ediblər. Həmin şəxslər 23,800,474 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 39 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 28.5%-ni yeni istifadəçilər, 71.5%-ni isə təkrar müraciət edənlər təşkil edib.

May ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 763,408 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 277,065 nəfər olub. Həmin şəxslər 2,266,032 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 1,467,127 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 4 dəqiqə 27 saniyə təşkil edib. May ayı ərzində portala müraciət edənlərin 23.7%-ni yeni istifadəçilər, 76.3%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 230,346-ya çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 420 olub.




© 2015 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Nəsimi r-nu, Dilarə Əliyeva küç., 185
Tel.: 157; Email: office@rabita.az